# Milli ruhun tərcümanı

**Azərbaycan mediasının unudulmaz simalarından biri Hacı Hacıyevin anadan olmasının 100 illiyi milli jurnalistikamızın əsryarımlıq yubileyi ilində daha bir əlamətdar ictimai-mədəni hadisədir. Bu insanın sevgi-sayğı ilə xatırladığımız simasını bizim üçün dəyərli edən ustad jurnalistin misilsiz fədakarlığıdır.**



Söhbət jurnalistikamızın da ölkəmiz kimi müstəqillik qazanıb azadlığa qovuşması yolunda göstərilmiş qeyrət və cəsarətdən gedir. Əlbəttə, söhbət həm də təpədən-dırnağadək milli təəssübkeşlikdən gedir. Hacı müəllimin anadilli jurnalistikamızın təəssübkeşliyi ilə mənalanmış ömür yolu böyük Həsən bəy Zərdabi ənənələrinə sədaqət və xalqa sözlə xidmət nümunəsidir. Hacı Hacıyev peşə sevgisini peşəkarlıq məfkurəsinə çevirmiş media xadimidir. Azərbaycan milli jurnalistikasının bu ustad siması milli təəssübkeşliyin bənzərsiz örnəyini yaratmış qələm sahibi və jurnalistika təşkilatçısı idi.

Hacı Hacıyevin jurnalistikamız adına gördüyü işlərin, göstərdiyi xidmətlərin özü yeni bir ənənənin formalaşmasında önəmli rol oynayıb. Sovet jurnalistikası içərisində əridilmiş demokratik jurnalistikamızın milliləşdirilib tarixi məcrasına qaytarılması məhz belə bir ənənə olaraq yaranıb. Bu ənənənin davamında jurnalistikamızın önəmli tarixlərinin yad edilməsi, milli ruhlu yubiley, qurultay və konfransların keçirilməsi Hacı müəllimin təşəbbüskar fəaliyyəti ilə sıx bağlı olub.

Hacı Hacıyev jurnalistikaya milli ziyalılıq obrazı qazandırmış simadır. Bu obraz geniş yaradıcılıq diapazonu ilə seçilib. Həyatı azad sözün təntənəsi yolunda mübarizədə keçmiş bu söz fədaisi tərcümələri, sənədli-bədii əsərləri, filmoqrafiyası ilə mediamızın peşəkarlıq salnaməsini zənginləşdirib.

Hacı müəllim jurnalistikamıza həm də milli kübarlıq qazandırıb. Onun təqdim etdiyi jurnalistika cəmiyyətin can atdığı ictimai düşüncə zirvəsidir. Hacı Hacıyev jurnalistikası insanların ümid və təsəlli, mübarizə və qələbə tribunası kimi də göz önünə gəlir. Yetkin qələm sahibinin söz dünyası həmişə həyatsevərliyə köklənib, zaman-zaman qarşısına qoyduğu hədəflərə yetişib. Onun fikir və duyğuları insanlara xoş əhval gətirib, cəmiyyəti yüksəlişə səsləyib.

Anadan olmasının 100 illiyi media təqvimimizin seçilən bir günü kimi qeyd edilən bu mətbuat fədaisini ehtiramla anmaq həm böyük qürur və fəxarətdir, həm də nəsillərə örnək olacaq qədirbilənlikdir. Uca Tanrıdan Hacı müəllimə rəhmət diləyir, xatirəsini böyük ehtiramla yad edirik!

**Əflatun AMAŞOV,**
**"Xalq qəzeti"nin baş redaktoru**